**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 405
10.33864/2617-751X.2025.v8.i8.255-269

# ORIENTALISTS AND THE ISSUE OF DISTORTION OF THE HOLY QURAN

**Tarlan Seyfullayev***

**Abstract.** The word "distortion" in the dictionary sense means something being displaced from its proper place or twisted. In Quranic sciences, distortion primarily refers to alterations of words, including additions or omissions. However, there is substantial evidence proving that the Qur'an has not been distorted. These include the judgment of human intellect, the divine wisdom safeguarding the Qur'an, the preservation of its miraculous features to this day, the concept of finality as the last religious scripture, the Qur'an's role as a source of guidance, and its accurate transmission through mass transmission (tawatur) from generation to generation over millennia. Furthermore, evidences such as the Qur'an's challenge (tahaddi), Allah's promise to protect His Book, the immediate recording and teaching of the Qur'an by the Prophet and his companions, its wide dissemination, comparison with Hadith, and the Hadith of Thaqalayn all indicate the preservation of the Qur'an. Throughout history, the special care and attention Muslims have shown towards the Qur'an also demonstrate that it has never been distorted. Therefore, the present Qur'an has been preserved in its original form and will continue to be preserved. Orientalists in recent centuries have cast doubt on the originality of the Qur'an, claiming it has been distorted, primarily citing differences among various Mushafs (manuscripts). These claims often point to inaccuracies in the early compilation history of sacred texts, which could undermine believers' trust in religious authorities. For example, Ignaz Goldziher suggested changes in the Shiite Qur'anic text based on unreliable sources; this view is refuted by Shiite scholars. Reggie Blacher argued that the Prophet's forgetfulness, based on certain Hadiths, indicates distortion of the Qur'an, but these claims are supported by weak evidence and contradict Qur'anic verses. Allegations regarding the non-recording of Meccan verses are also unsubstantiated and contradictory. Theodor Nöldeke claimed that Uthman and others removed certain names from the Qur'anic text, but there is no evidence to support this, and this claim overlooks the overall wisdom of the Qur'an. Overall, the orientalists' claims about the distortion of the Qur'an are based on weak foundations and are refuted by classical Islamic sources.

**Keywords:** Quran, miracle, distortion, orientalist, doubt

---

* Doctor of Philosophy in Theology,
Lecturer of the Al-Mustafa International University; Baku, Azerbaijan
E-mail: seyfi14@mail.ru
https://orcid.org/0000-0002-2391-2382

**To cite this article:** Seyfullayev, T. [2025]. ORIENTALISTS AND THE ISSUE OF DISTORTION OF THE HOLY QURAN. *"Metafizika" journal, 8*(8), pp.255-269.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.255-269

***Article history:***
*Received: 25.09.2025*
*Accepted: 20.10.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 405
10.33864/2617-751X.2025.v8.i8.255-269

# ВОСТОКОВЕДЫ И ПРОБЛЕМА ИСКАЖЕНИЯ КОРАНА

**Терлан Сейфуллаев***

**Абстракт.** Слово «тахриф» в буквальном смысле означает отклонение и искажение какого-либо понятия от его исходного положения. В науках о Коране «тахриф» в основном выражается в изменении, добавлении или удалении слов и выражений. Существует множество доказательств того, что Священный Коран не подвергался искажению. Логика человеческого разума, сохранение Корана по божественной мудрости, сохранение его чудесных свойств до наших дней, концепция завершённости религии как последней книги, роль Корана как источника руководства и его точная передача из поколения в поколение посредством «таватура» являются фактами, указывающими на то, что Священная книга не подвергалась искажению. Кроме того, доказательство «тахадди» Корана, гарантия Аллаха о сохранении Своей книги, немедленная запись, преподавание и широкое распространение Корана Пророком и сподвижниками, сравнение Корана с хадисами, а также хадис «Сакалейн» являются свидетельствами того, что Коран был сохранён без искажений. Особое внимание и забота, проявленные мусульманами к Корану на протяжении всей истории, также показывают, что он никогда не подвергался искажению. Поэтому нынешний Коран сохранён в своём оригинальном виде и будет сохранён и впредь. Востоковеды в последние века, ставя под сомнение подлинность Корана, утверждают, что он был искажён, указывая в качестве основного аргумента на различия между отдельными мусхафами. Причина этих необоснованных утверждений заключается в ссылках на неточности, присутствовавшие в истории составления предыдущих священных книг. Игнац Гольдцигер, опираясь на ошибочные источники, выдвигает идею о том, что шииты признают изменения в тексте Корана. Однако это опровергается шиитскими учёными. Режи Блашер, опираясь на хадисы о забывчивости Пророка, утверждает, что Коран был искажён, однако оказывается, что эти мнения основаны на слабых источниках. Утверждения о незаписанных мекканских аятах являются необоснованными и противоречивыми. Теодор Нёльдеке без доказательств утверждает, что Усман и другие лица удалили из текста Корана некоторые имена. В целом, мнения востоковедов об искажении Корана основываются на слабых доводах и опровергаются классическими исламскими источниками.

**Ключевые слова:** Коран, чудо, искажение, востоковед, сомнение, мусхаф

---

* Доктор философии по теологии,
Преподаватель Международного Университета «Аль-Мустафа»; Баку, Азербайджан
E-mail: seyfi14@mail.ru
https://orcid.org/0000-0002-2391-2382

**Цитировать статью:** Сейфуллаев, Т. [2025]. ВОСТОКОВЕДЫ И ПРОБЛЕМА ИСКАЖЕНИЯ КОРАНА. *Журнал «Metafizika»*, *8*(8), c.255-269.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.255-269

***История статьи:***
*Статья поступила в редакцию: 25.09.2025*
*Отправлена на доработку: 20.10.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

 *AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6
**MJ №** 405
10.33864/2617-751X.2025.v8.i8.255-269

# ŞƏRQŞÜNASLAR VƏ QURANİ KƏRİMİN TƏHRİF MƏSƏLƏSİ

**Tərlan Seyfullayev***

**Abstrakt.** Təhrif sözü hərfi mənada bir məfhumun olduğu yerindən kənara çıxarılması və əyilməsi anlamını daşıyır. Quran elmlərində təhrif əsasən söz və kəlmələrin dəyişdirilməsi, əlavə edilmə və ya çıxarılma formasında olur. Qurani-Kərimin təhrifə məruz qalmaması ilə bağlı çoxsaylı dəlillər mövcuddur. İnsan məntiqinin hökmü, Quranın ilahi hikmətlə qorunması, onun möcüzəvi xüsusiyyətlərinin bu günə qədər qalması, dinin son kitabı kimi xatəmlik məfhumu, Quranın hidayət mənbəyi olması və “təvatür” yolu ilə min illər ərzində dəqiq şəkildə nəsildən-nəslə ötürülməsi müqəddəs kitabın təhrifə məruz qalmamasını göstərən faklardır. Bundan əlavə, Quranın “təhəddi” dəlili, Allahın öz kitabını qoruyacağına dair verdiyi zəmanət, Peyğəmbərin və səhabələrin Quranı dərhal yazıb, təlim edib geniş şəkildə yayması, hədislərlə Quranın müqayisəsi, habelə “Səqəleyn” hədisi Quranın təhrifə məruz qalmadan qorunmasının göstəriciləridir. Tarix boyu müsəlmanların Qurana göstərdiyi xüsusi diqqət və qayğı da onun heç vaxt təhrif edilmədiyini göstərir. Buna görə də, indiki Quran orijinal halında qorunub saxlanmış və bundan sonra da qorunacaqdır. Şərqşünaslar son əsrlərdə Qurani-Kərimin orijinallığına şübhə yaradaraq, onun təhrif olunduğunu iddia edir, əsas arqument kimi müxtəlif müshəflərdəki fərqləri göstərirlər. Bu əsassız iddiaların səbəbi müqəddəs kitabların əvvəlki tərtib tarixindəki qeyri-dəqiqliklərə istinad etməkdir. İqnas Qoldziher (1850-1921) şiələrin Quranın mətnində dəyişiklik olması fikrini yanlış mənbələrə əsaslanaraq irəli sürür. Halbuki bu, şiə alimləri tərəfindən təkzib edilir. Reji Blaşer Peyğəmbərin unutqanlığı barədə hədislərə əsaslanaraq Quranın təhrif olunduğunu iddia etsə də, bu fikirlərin zəif sənədlərlə əsaslandığı ortaya çıxır. Məkkə ayələrinin yazılmaması barədə iddialar isə əsaslandırılmamış ziddiyyətli fikirlərdir. Teodor Nöldke isə sübut olmadan Osman və digər şəxslərin Quran mətnindən bəzi adları çıxardıqlarını irəli sürür. Ümumilikdə, şərqşünasların Quranın təhrif olunması haqda fikirləri zəif əsaslara söykənir və klassik İslami mənbələr tərəfindən təkzib edilir.

**Açar sözlər:** Quran, möcüzə, təhrif, şərqşünas, şübhə, müshəf

* İlahiyyat üzrə fəlsəfə doktoru,
Beynəlxalq əl-Mustafa Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: seyfi14@mail.ru
https://orcid.org/0000-0002-2391-2382

**Məqaləyə istinad:** Seyfullayev, T. [2025]. ŞƏRQŞÜNASLAR VƏ QURANİ KƏRİMİN TƏHRİF MƏSƏLƏSİ. *“Metafizika” jurnalı, 8*(8), səh.255-269.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.255-269

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.09.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 20.10.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Qurani-Kərim Allah tərəfindən bəşəriyyət üçün bir proqram və səadət yolunun bələdçisi kimi göndərilmiş, son və ən kamil səmavi kitab olaraq İslam Peyğəmbəri (s) vasitəsilə nazil edilmişdir. Digər səmavi və qeyri-səmavi dinlərin alimləri öz müqəddəs kitablarının təhrif olunmasına, hətta bəzən səmavi olmamasına açıq şəkildə etiraf etdikləri zaman Quranin əsla təhrifə məruz qalmaması məsələsi daha qabarıq şəkildə əhəmiyyətini göstərmiş olur. Xristian din alimləri özləri də yaxşı bilirlər ki, dörd İncil (Matta, Mark, Luka və Yuhanna) İsa Məsihin (ə) həyatından sonra onun dörd həvarisi tərəfindən yazılmışdır. Onlar Allahın İsa peyğəmbərə (ə) nazil etdiyi vəhyləri yenidən yazmağa çalışmamışlar. Əksinə, İsa Məsihin (ə) həyatı və davranışları, səfərləri, insanlarla söhbətləri, verdiyi nəsihətlər, eləcə də bəzi həvarilərin və xristian alimlərinin camaata ünvanladığı məktublar kimi şəxsi xatirələrini və müşahidələrini qələmə almışlar. Bu səbəbdən hazırda xristianların əlində olan İncil də səmavi vəhy hesab edilmir, əksinə, İsa Məsih (ə) və Onun həvarilərinin həyatına dair yazılmış bir bioqrafiya qaynağı kimi qəbul olunur. Yəhudilər də çoxsaylı risalələrin olmasına baxmayaraq, Tövratın (Əhdi-Ətiq) xüsusi bir mətn və ya dəqiq bir külliyyatını Musa peyğəmbərə (ə) Allah tərəfindən göndərilmiş vəhy kimi təqdim etmirlər. Zərdüştilər isə özləri iddia edirlər ki, 50 cilddən ibarət olan "Avesta"-nın yalnız bir cildi qalıb, qalanları yanğın nəticəsində məhv olmuşdur. Beləliklə, müasir dünyada bütün ayələri Allah tərəfindən bir peyğəmbərə vəhy olunmuş, o peyğəmbər tərəfindən insanlara oxunmuş və bu günə qədər də hər cür dəyişiklik və təhrifdən tam şəkildə qorunmuş yeganə kitab Qurani-Kərimdir.

## 2.Təhrif sözünün hərfi mənası

"Təhrif" kəlməsi lüğət baxımdan "hərf" kökündəndir, bir şeyin kənarı, tərəfi və ya ətrafı mənasını verir. Təhrif etmək- bir şeyi öz əsas yerindən, mövqeyindən kənara çəkmək, onu əyərək başqa bir səmtəə yönəltmək deməkdir [Mustəfəvi, 1385 h.ş, c 2, s.197].

Qurani-Kərimdə oxuyuruq:

وَ مِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلىَ حَرْفٍ فَإِنْ أَصَابَهُ خَير اطْمَأَنَّ بِهِ وَ إِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلىَ وَجْهِهِ
خَسِرَ الدُّنْيَا وَ الاَخِرَةَ ذَالِكَ هُوَ الخُسْرَانُ الْمُبِينُ

*"...İnsanlardan eləsi də vardır ki, Allahı yalnız bir kənardan (yəni, şəxsi mənfəətinə uyğun gəldikdə) ibadət edər. Əgər ona bir xeyir gəlsə, aramlıq tapar. Amma əgər bir sınaq ilə üzləşsə, üz çevirib (küfrə) dönər. Belə bir insan həm dünyasını, həm də axirətini uduzmuş olar. Bu isə açıq-aşkar ziyana uğramaqdır"* [Həcc, 11].

Bu ayədə "hərf" (kənar) kəlməsi, Allahın dininə qeyri-sabit, müvəqqəti və şərtli yanaşmanı ifadə edir. Təhrif də bu mənadan çıxaraq, bir şeyi öz düzgün mövqeyindən kənarlaşdırmaq və təhrif etmək mənasını daşıyır.

## 3.Təhrif sözünün terminoloji mənası

Quran elmlərində “təhrif” termini müxtəlif növlərə bölünür. Onlar aşağıdakılardır:

1.**Kəlmələrin dəyişdirilməsi ilə həyata keçirilən təhrif:** Yəni bir kəlmənin Quran mətnindən çıxarılması və onun yerinə başqa bir kəlmənin əlavə olunması.

2.**Artırma yolu ilə təhrif (təhrif biz-ziyadə):** Quran ayələrinə Allah tərəfindən nazil edilməmiş bir söz və ya cümlənin əlavə olunması.

3.**Əskiltmə yolu ilə təhrif (təhrif bin-nəqs):** Quranın müəyyən bir hissəsinin, söz və ya ayələrinin mətnindən çıxarılması və ya ixtisar olunması.

**4.Təhrifin digər növləri**

Təhrifin digər növləri aşağıdakılardan ibarətdir:

1.Mənəvi təhrif: Ayələrin məzmununun məqsədli şəkildə başqa cür yozulması və yanlış məna verilməsi.

2.Mövzuda təhrif: Ayələrin kontekstdən çıxarılaraq özünəməxsus və ya qərəzli mövzularda tətbiq edilməsi.

3.Qiraətdə təhrif: Quranın düzgün olmayan şəkildə oxunması, yəni qiraət qaydalarının pozulması.

4.Ləhcə və şivədə təhrif: Müxtəlif bölgələrdəki tələffüz fərqlilikləri səbəbilə Quranın sözlərinin düzgün başa düşülməməsi və ya təhrifli tələffüz olunması.

Yuxarıda qeyd olunan təhrif növlərinin heç biri Qurani-Kərimin müqəddəs məqamına yol tapa bilməmişdir. Ümumiyyətlə, bir səmavi kitabın təhrifi o zaman baş vermiş sayılır ki, edilən dəyişikliklər nəticəsində artıq İlahi kəlam düzgün şəkildə tanınmasın, insanların əlindən çıxsın və ya Allahın sözü olmayan bir şey, Onun kəlamı kimi təqdim olunsun.

Qurani-Kərimin təhrifdən qorunması, onun orijinal mətninin qalıcı şəkildə mühafizə olunması və bu mətnin insanlar arasında tanınması deməkdir. Yəni müsəlmanlar və digər inanclı qruplar heç vaxt Quranın orijinal mətnini tanımaq və ondan bəhrələnmək imkanından məhrum olmayacaqlar.

**5.Bəzi şərqşünasların Quranın təhrif olunması haqqında fikirləri**

Şərqşünaslar son bir neçə əsrdə “Qurani-Kərimin tərtibi və toplanması” həmçinin nəşri üçün çox səy göstərmişlər. Bundan əlavə, onlar davamlı tədqiqatlar aparmış, ensiklopediya və jurnallarda məqalələr yazmış, çoxsaylı kitablar çap etmişlər. Bütün bu səylər yalnız bir məqsədi güdür- mövcud Qurani-Kərimin orijinallığına şübhə yaratmaq və Peyğəmbərin (s) tilavət etdiyi ayələrdə toplanma və tərtib işlərini həyata keçirən şəxslər tərəfindən dəyişikliklər edildiyini iddia etmək. Onlar bu fikri sübut etmək üçün «müxtəlif müshəflərin mövcudluğu» və aralarındakı kiçik fərqləri qabardaraq davamlı olaraq bunu önə çəkir və həmin müshəflərdə yazı və oxunuş fərqlərini kitablarında və məqalələrində təqdim edirlər.

Şərqşünasların adıkeçən mövzuya bu qədər böyük diqqət ayırmalarının sirri nədir? Onların bu qədər narahatlığı və zehni məşğulluğunun səbəbi nədir?

Çünki bu qədər geniş tədqiqat, yazı, nəşr və kitabların sözügedən mövzu ətrafında hazırlanması olduqca təəccüblüdür. Bu sirrin açarı Qurandan öncəki səmavi kitabların tarixi keçmişinə və onların tərtib dövrünə nəzər salmaqla əldə edilə bilər. Çünki müqəddəs kitabların ilkin yazılı versiyaları o qədər dağınıq, qarışıq və sənədsizdir ki, bu vəziyyət əsrlər boyu o kitablara etiqd bəsləyib inananlar üçün narahatlıq səbəbi olmuşdur. Onlar qərara alıblar bu kitabların tərtib tarixi ilə bağlı ümumiyyətlə heç bir kitab yazılmasın, heç bir tədqiqat aparılmasın və bu mövzu insanlar arasında yayılmasın.

**6.Quranın təhrif olunması iddiası**

**6.1.İqnas Qoldziher (1850-1921)**

Qoldziher deyir: "*Bütün şiələrin inancına görə, Qurani-Kərim indi mövcud olan Qurandan daha çox olub. Sonra bu iddiasını belə izah edir: Şiələr inanırlar ki, Əhzab surəsi, 73 ayə olmasına baxmayaraq, əvvəlcə Bəqərə surəsi kimi 286 ayə olub. Nur surəsi, 64 ayə olmasına baxmayaraq, əvvəl 100-dən çox ayə idi və Hicr surəsi, indi 99 ayəlik olmasına baxmayaraq, əvvəlcə 190 ayə idi*" [Qoldziher, 1995 m, s.293-295].

**Cavab:**

Qoldziher şiənin Qurana dair görüşləri haqqında iki təfsirə istinad edib. Bunlar şiə inancı ilə əlaqəsi olmayan əsərlərdir. Bu iki kitabdan biri "Bəyanus-Səadə fi məqamil-ibadə" adlı əsərdir, müəllifi 1251-ci hicri-qəməri ilində anadan olmuş və 1327-ci ildə vəfat etmiş Sultan Məhəmməd Gonabadi Heydər Bidəxti oğludur. O, Nemətullahi sufi təriqətinin rəhbəri olub. Bu kitabın tərtibi 1311-ci hicri-qəməri ilində başa çatmış və ilk dəfə 1314-cü ildə Tehranda çap olunmuşdur.

İkinci kitab isə "Təfsiru Əli ibn İbrahim ibn Haşim Qumi" adlanır.

1.Qoldziher Əhzab surəsi və digər surələr haqqında şiələrə aid etdiyi fikirlər tamamilə yalandır və şiə kitablarında buna dair heç bir məlumat tapılmır, həmçinin heç bir etibarlı mənbədə bu barədə məlumat yoxdur. Əhli-sünnənin "Səhih kitablarında" Urvə ibn Zübeyr bibisi Aişəyə nisbət verərək deyir: Peyğəmbər (s) zamanında Əhzab surəsi oxunurdu və iki yüz ayə idi, amma Osman Quranı tərtib edib uyğunlaşdıranda, mövcud saydan çox ola bilmədi [Siyuti, 1363, c 3, s.72].

2.Qoldziher nə üçün özünün araşdırma qaynağı kimi «Bəyan əs-Səadə» kitabını seçib, nə üçün onu şiənin ən qədim təfsirlərindən biri hesab edərək hicri 311-ci il tarixini göstərmişdir? Digər tərəfdən, əsərin müəllifinin adını da təhrif edərək, İbn Heydər Bidəxti əvəzinə «İbn Həcər Bəcəxti» kimi qeyd etmişdir. Halbuki belə bir ad nə bir bioqrafiya kitabında, nə də tarix kitablarında mövcuddur".

"Əgər o, tərcümeyi-hal kitablarına müraciət etsəydi və ya həmin kitabın digər nüsxələrini görsəydi, öz iddialarının əksinə olaraq, həqiqəti anlayardı və aydın olardı ki, həmin kitab hicri XIV əsrdə yazılmışdır, IV əsrdə yox."

3.Qoldziher bilməli idi ki, şiə alimləri bütün fikir ayrılıqlarına baxmayaraq, sufilərin görüşlərini rədd etmiş, onlara əhəmiyyət verməmiş, sufilərdən və onların etiqadlarından uzaq durmuşlar?!”

4.Əli ibn İbrahim Qumiyə nisbət verilən təfsir isə əslində onun özü tərəfindən yazılmayıb, əksinə, şəxsiyyəti məlum olmayan bir tələbəsi tərəfindən toplanmışdır? Bundan əlavə, həmin təfsirin məzmunu yalnız Qumiyə nisbət verilən təfsirlə məhdudlaşmır, həm də digər təfsirlərlə, o cümlədən İmam Cəfər Sadiq (ə) tərəfindən lənətlənmiş Əbu Cərudun təfsiri ilə qarışıqdır.

**6.2.Reji Blaşer (1900-1973)**

Reji Blaşer Peyğəmbərə unutqanlıq nisbətini verir.

O, bu barədə yazır: “Rəvayətlərdən belə məlum olur ki, Məhəmməd bir gün moizə məclisindən keçərkən eşidir ki, vaiz Qurandan bir hissəni əzbər oxuyur. Peyğəmbər, şiddətli həyəcan keçirdiyi, bu hissəni unutduğunu anladı və yalnız bu təsadüf sayəsində onu yenidən xatırlaya bildi. Tarix baxımından araşdırılmalı olan bu mövzu, Bəqərə surəsinin bir ayəsi ilə təsdiqlənir, orada buyurulur:

ما نَنْسَخْ مِنْ آيَةٍ أَوْ نُنْسِها نَأْتِ بِخَيْرٍ مِنْها أَوْ مِثْلِها أَ لَمْ تَعْلَمْ أَنَّ اللَّهَ عَلى كُلِّ شَيْءٍ قَدِير

Biz bir ayəni (ayənin hökmünü) ləğv edəndə və ya onu unutduranda, ondan daha yaxşısını, yaxud ona bənzərini gətiririk. Allahın hər şeyə qadir olmasını bilmirsənmi?! [Bəqərə, 106]

Baxmayaraq ki, “unutduranda” ifadəsi onun qeyri-müəyyən mənasında yəni “tərk etmək” anlamında da başa düşülə bilər, lakin bəzi təfsirçilər onu əsas mənasında yəni “yaddaşlardan silmək” kimi qəbul edirlər [Bilaşer, 1372 h.ş, s.31-32].

**Cavab**

1.Blaşer və digər şərqşünasların baxışlarını incələyərkən demək lazımdır ki, onlara yönəldilən əsas irad budur: Peyğəmbərin unutqanlığı mövzusunda Əhli-sünnə kitablarında mövcud olan rəvayətlərə müraciət etmiş və onlara etibar etmişlər. Məsələn, əgər kimsə bu gün Səhih əl-Buxari kitabına müraciət etsə, belə bir hədisi görər.

عن عائشة رضى الله عنها قالت سمع النبى رجلا يقرأفى المسجد فقال لقد اذكرنى كذا و كذا آية اسقطتهن من سورة كذا و كذا

Aişədən rəvayət olunur ki, o demişdir: Peyğəmbər (s) məsciddə bir kişinin qiraət etdiyini eşitdi və dedi: O, filan surədən tərk etdiyim ayələri mənə xatırlatdı [Buxari, 1401 h.q, c 3, s.152].

Blaşer və onun kimi tədqiqatçılara ünvanlana biləcək digər irad budur: Niyə onlar Mədində nazil olmuş Bəqərə surəsi, 106-cı ayəni təfsir edərkən Məkkədə nazil olmuş əl-Əla surəsinin 6-7-ci ayələrinə diqqət etməyib və hədislərlə Qurani-Kərim arasında ziddiyyətin olduğunu görməyiblər. Çünki qeyd olunan ayələr, Peyğəmbərin unutqan olmaması barədə Allahın vədəsidir və şübhəsiz ki, Allahın vədəsi dəyişməzdir. Ayədə deyilir: Biz (Quranı) tezliklə sənə

oxuyacağıq və sən əsla unutmayacaqsan, yalnız Allah istəsə; O, aşkarı da, gizlini də bilir.

Qeyd etmək lazımdır, "yalnız Allah istəsə" istisnası əl-Əla surəsinin ayələrində Peyğəmbərin unutmasının baş verməsinə sübut deyil; bu istisna yalnız Peyğəmbərin unuda bilmə ehtimalını Allahın istəyi və məsləhətilə mümkün olduğunu göstərir. Başqa sözlə desək, Allah istəsə Peyğəmbərə unutdura bilər [Təbatəbai, 1393 h.q, c 20, s.266].

2.Görünür, Peyğəmbər haqqında unutqanlıq nisbəti sənədləri zəif olan bəzi hədislərdən qaynaqlanır, [İbni Əbi Hatəm, 1419 h.q, c 1, s.200] ona görə də, bu cür hədislərə istinad etmək tamamilə yanlışdır.

3.Belaşər Bəqərə surəsi 106-cı ayədə olan "nənsəha" kəlməsini unutmaq mənasında qəbul etmişdir, halbuki əksər alimlərin fikrinə görə, yuxarıdakı ayədə "nənsəha" sözü tərk etmək və silmək mənasındadır, unutmamaq mənasında deyil [Hüseyni Şah Əbdül Əzimi, 1363 h.ş, c 1, s 225; Təyyib, 1378 h.ş, c 2, s.140].

Deməli Bəqərə surəsi 106-cı ayənin Quranın təhrif olunması ilə heç bir əlaqəsi yoxdur.

**6.3.Qurandan Məkkə surələrinin silinməsi iddiası**

Qurani Kərimdə tahrif iddialarından biri də Belaşerin Məkkə ayələrinin Quranda qeydə alınmaması barədə söylədikləridir. O bunu ona görə iddia edir ki, ayələrin toplanması və qeydə alınması Mədinədə başlamışdır; bu, Noldkenin irəli sürdüyü iddiaya bənzəyir. Belə ki, Peyğəmbər Hira mağarasında nazil olan ilk ayələri uzun müddət qeyd etməmiş, sonra isə Mədinədə yəhudi və məsihi müqəddəs kitablarını görəndən sonra onları yazmağa başlamışdır [Zəmani, 1385 h.ş, s.268].

Blaşer bu barədə yazır: Şübhə yoxdur ki, Məkkədə İslamı qəbul edən ilk insanların zehnində Quranın yazılı şəkildə olması zərurəti mövcud idi. Yəni, ilk müsəlmanlar nazil olmuş ayələrin yazılmasının vacib olduğunu bilirdilər və bu anlayışı, Məkkə yəhudiləri və nəsrani icmalarında mövcud olan Tövratdan və ya Nəcran və Həbəşədəki xristianların istifadə etdiyi İncilərdən əldə etmişdilər. Çünki onlarla ticarət əlaqələri qurmuşdular. Buna baxmayaraq, Məhəmmədin (s) ərafında olanlar dərhal ayələrin yazılmasının zərurətini hiss etməmişdilər ki, bu yolla ayələr qorunub saxlanılsın və məhv olub aradan getməsin. Bu hadisə təəccüb doğurur, çünki bu mesaj insanlara ilk dəfə ərəb dilində göndərilmişdi, göydən gəldiyinə görə ayələr Allah tərəfindən göndərilən işarələr kimi qəbul edilirdi. Bəlkə də Məhəmmədin (s) Məkkədən Mədinəyə köçündən sonra, əvvəlki illər ərzində nazil olmuş mətnlərin yazılması fikri müsəlmanların diqqətini çəkmiş və onlar bu mətnləri sərt materiallara, heyvan sümüyünə və ya dəri parçasına yazmağı düşünmüşlər. Bəlkə də ayələrin yazılması bəzən əlavə, ikinci bir iş kimi ortaya çıxdı. Həmçinin, bəlkə də bəzi mətnlərin, o cümlədən duaların yazılması və ya

vəhylərin ilk nazil edildiyi vaxtdan etibarən yazıya alınması fikri mövcud idi... Peyğəmbər ayələrin yazılması və toplanması üçün insanları təşviq etmiş, lakin bunu vacib vəzifə kimi qoymamışdır [Blaşer, 1372 h.ş, s.35]

**Cavab:**

1.Blaşer bu iddiasına heç bir əsas gətirməyib, buna görə də fikirlərini təəccüb və şübhə ilə ifadə etmişdir. Əgər əsasları olsaydı, şübhəsiz ki, onları qeyd etməkdən imtina etməz və Quranın Məkkə dövrünə aid surələrinin çıxarılması məsələsini açıq şəkildə bildirərdi.

2.Blaşerin sözlərindəki ziddiyyət səbəbindən, bu şübhə barədə müzakirə tədqiq və araşdırmanın çərçivəsindən çıxır; çünki yuxarıdakı məzmuna görə, o, bir tərəfdən Quranın təhrif olunduğu şübhəsini irəli sürür, digər tərəfdən isə “Qurana giriş” adlı kitabının əhəmiyyətli bir hissəsini Məkkə surələri və onların mövzularının izahına həsr edir. Buna görə də belə bir sual meydana çıxır: Əgər Məkkə ayələrinin Quranda yazılması şübhə altındadır və qəti deyilirsə, bəs necə olur ki, Blaşer kitabının bir fəsilində ayələrin Məkkəyə aid olduğunu açıq şəkildə ifadə edir?

3.Əgər Blaşerin kitabının müxtəlif fəsillərindəki yazıların ziddiyyətlərini nəzərə almazsaq, onun eyni paraqrafdakı ziddiyyətlərinə göz yuma bilmərik. Paraqrafın əvvəlində yazır: Şübhə yoxdur ki, Məkkədə ilk müsəlman qruplarının zehnində Quranın yazılı şəkildə olması zərurəti mövcud idi. Amma həmin paraqrafın davamında iddia edir: Buna baxmayaraq, Məhəmmədin (s) ərafında olanlar dərhal ayələrin yazılmasının zərurətini hiss etməmişdilər ki, bu yolla ayələr qorunub saxlanılsın və məhv olub aradan getməsin. Nəticədə oxucu başa düşmür ki, peyğəmbərin ətrafında olanlar, yəni səhabələr Quranın yazılıb saxlanılmasının zərurətini bilirdilər, yoxsa yox?

**6.4.Teodor Nöldeke (1836-1930)**

Nöldke, Qustav Veilin (Weil, Einleitung inden Koran) sözlərinə istinad edərək Osmanın dövründən əlavə Əbu-Bəkrin dövründə də Quranın təhrifə məruz qaldığını iddia edir. O belə davam edir: Deyilir ki, Osman Bəni Üməyyə (Osmanın qohumları) əleyhinə olan bütün ayələri çıxarıb. Lakin Veil, bu şübhənin doğruluğunu və ya şərhini dəstəkləyən heç bir sübut göstərmir. Ona görə də, bu çıxarışların tam olub-olmaması və ya yalnız tək-tək adların silinməsi məlum deyil. Təfsir müəllifləri indiki mətndə, məsələn, Bəni Üməyyə əleyhinə olan Hucurat surəsinin 6-cı ayəsi kimi bəzi yerlərə işarə edir, halbuki həmin ayələr çıxarılmayıb. Lakin tək-tək adların silinməsi özü bir faktdır. Sonra Noldke əlavə edir: Bəni Üməyyə ən azından peyğəmbərin vəzifəsinin başlanğıcında Məkənin nüfuzlu ailələri arasında ən düşmən ailə deyildilər. Ona görə də biz məcburuq fərz edək ki, İslamın düşmənləri olan digər çoxlu sayda adlar, məsələn, yəhudilər və münafiqlər, peyğəmbərin onlardan kəskin nifrəti olduğuna görə Quran mətnindən çıxarılıb.

Buna əlavə olaraq, peyğəmbərin ətrafındakı insanların- istər şəxslərin, istərsə də yerlərin adlarını- xatırlatması adəti olmadığı vurğulanır; bu is təsadüfi deyil, məqsədli olub. Əgər belədirsə, Peyğəmbərin özü Quran ayələrini birləşdirib vahid mətn halına gətirərkən adların silinməsi əməliyyatını yerinə yetirdiyi qənaətinə gəlmək olar.

Quranda beş yerin adı çəkilir: “Məkkə” iki dəfə Fəth surəsində, “Bədr” Ali İmran surəsi, 123-cü ayədə, “Hüneyn” Tövbe surəsi, 25-ci ayədə, “Yəsrib” Əhzab surəsi, 13-cü ayədə. Lakin dövrün insanlarından, Peyğəmbərin özündən başqa [Fəth surəsi, 29-cu ayə; Səf surəsi, 6-cı ayə] yalnız iki nəfərin adı çəkilir: Zeyd, azad olunmuş qulluqçusu və əmisinin oğlu Əbu Ləhəb (Məsəd surəsi). Peyğəmbərin sədaqətli və əsas yoldaşlarının heç biri heç vaxt adla qeyd olunmayıb. Bunun bir neçə səbəbi ola bilər: Ya peyğəmbər Quranın mətnində çoxlu hissələri qəsdən buraxıb! ya da o, qaydalara zidd olan istisnaları qeyri-məhdud şəkildə müdafiə edib (yəni Quranın üslubu və məqsədi buna imkan verməyib, və ya Peyğəmbər şəxsi adların çəkilməsini məqsədəuyğun saymayıb). Yaxud da səbəb budur ki, qədim təfsir haşiyələri orijinal mətndə yer alıb (və ya qarışıb) [Noldke, 2000 m, c 2, s.317].

**Cavab:**

1.Teodor Nöldke öz iddiası üçün heç bir tarixi sənəd və sübut gətirmir. Təkcə bir şeyi iddia etməklə müddəanı sübut etmək olmaz. Nöldke gərək Qurani-Kərimə və İslam aləminin dəyərli alimlərinin əsərlərinə müraciət edərdi. O zaman həqiqət onun üçün aşkar olardı. Allah-taala buyurur: Nə öncə, nə də sonra batil ona yol tapa bilməz. O, hikmət sahibi, şükrə layiq olan Allah tərəfindən nazil edilmişdir [Fussilət/42].

Digər ayədə oxuyuruq:

O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. Əgər o (Peyğəmbər) özündən bəzi sözlər uydurub Bizə isnad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq! Sonra onun şah damarını qopardardıq! [Haqqə/43-46].

2.Onun fikirləri Quranın nazil olma hikmətini anlamamasından irəli gəlir. Əgər Quran bir tarix kitabı olsaydı, yaxud bir rəhbər və cəmiyyət islahçısının xalqı istiqamətləndirmək üçün söylədiyi sözlər və tövsiyələr toplusu olsaydı, əlbəttə ki, yalnız məşhur və mühüm düşmənlərin adları deyil, həm də möminlərin, döyüş qələbəsi qazanan əsgərlərin və Peyğəmbərin (s) yaxınlarının adları müxtəlif münasibətlərlə qeyd olunmalı idi.

Lakin Qurani-Kərim elə bir səmavi kitabdır ki, bəşəriyyəti tarix boyunca, insan həyatının son günlərinə qədər hidayət etmək üçün nazil olmuşdur. Bu cür kitabdan gözlənilən, bütün dövrlərə tətbiq oluna biləcək ümumi və bəşəri təlim və istiqamətlər təqdim etməsidir. Hətta bir ayə müəyyən bir səbəblə, yəni bir “şən-i nüzul” və ya ictimai hadisə ilə bağlı nazil olsa belə, yenə də ümumiləşdirilə biləcək bir formada tətbiq edilməlidir. Bu hikmət və Quran ayələrinin ümumi məzmun və anlayış əsasında qurulmuş üslubunu nəzərə

alaraq, dost və düşmənlərin adlarını çəkmək- zərurət olmadıqca- heç bir şəkildə vacib deyildir. Əksinə, onların adının çəkilməsi bir Quran bilicisi üçün təəccüb doğurmalıdır.

**7.Montqomeri Vatın baxışında müsəlmanların Quranın toplanmasına verdiyi diqqət**

İngilis şərqşünası Montqomeri Vat yazır:

“Qurani-Kərim müqəddəs və ilahi hikmət kimi müsəlmanlar tərəfindən xüsusi diqqət və hörmətlə qarşılanmışdır. Quran ayələri nazil olan kimi yazılırdı və 650-ci ildə rəsmi olaraq toplanıb bir yerə gətirildi. Baxmayaraq ki, yazı üsulu (eyni cür olsa da) bəzi ayələrin oxunuşunda fərqlərə səbəb olmuşdur. Bu oxunuşların hamısı şifahi olaraq nəsildən-nəslə ötürülmüşdür və bu səbəbdən Quran da bütövlükdə şifahi şəkildə nəsildən-nəslə ötürülmüşdür.

Məhz buna görə də, bütün İslam məzhəbləri və fikir cərəyanları mövcud Quranın doğruluğu üzərində yekdil fikirdədirlər. Quranın əzbərlənməsi və təcvidlə oxunması tövsiyəsi də, Quranın qorunub saxlanmasına və davamlılığına xidmət etmişdir. Bundan əlavə, Quranın oxunması və tərtil ənənəsi hər bir nəsildə Quran mədəniyyətinin ötürülməsində mühüm rol oynamış və nəticədə Quran hər dövrdə müsəlmanların düşüncəsinin onurğa sütununa çevrilmişdir [Vat, 1998 m, s.128].

**8.Şərqşünasların Quran nüsxələrini araşdırmalarının nəticəsi**

Şərqşünaslar II Dünya Müharibəsindən əvvəl Almaniyanın Münhen şəhərində dünyanın müxtəlif yerlərində çap olunmuş və əlyazma Quran nüsxələrini axtarmağa başlamış, onları toplamaq və qorumaq məqsədilə “Quran Mərkəzi”-ni təsis etmişlər. Onlar müxtəlif ölkə və şəhərlərdən minlərlə nüsxə toplayıb araşdırdılar və qəti nəticəyə gəldilər ki, bu müqəddəs kitabın bütün nüsxələrinin mətnləri bəşəriyyət dünyasında eynidir və orada təhrif və insan müdaxiləsinin əlaməti olan heç bir fərq mövcud deyil [Bundaq, 1983 m, s.24].

**9.Quranın təhrif edilməməsinə dair sübutlar**

Ümumilikdə, Qurani-Kərimin təhrif olunmaması ilə bağlı müxtəlif dəlillər irəli sürülmüşdür. Onlardan biri də “tarixi sübutlar”dır. Tarixi tədqiqatlar və mövcud Quran nüsxələri ilə İslamın ilk dövrlərində mövcud olan Quran nüsxələrinin müqayisəsi göstərir ki, bu ilahi kitabdan heç bir kəlmə çıxarılmamış və ya əlavə edilməmişdir. Müsəlman alimləri öz əsərlərində Quranın təhrif edilməməsinə dair, “Əqlin aydın və qəti hökmü” [Mərifət, 1413 h.q, s.30], **“**Hikmət” dəlili, “Ecaz” dəlili [Təbatəbai, 1388 h.ş, s.117], “Xatəmiyyət” dəlili [Mutəhhəri, 1390 h.ş, c 2, s.183], **“**Quranın hidayət mənbəi olması” dəlili, “Təvatür” dəlili [Burucerdi, 1375 h.ş, s.111], “Təhəddi” dəlili [İsra/88, Hud/13, Bəqərə/23], “İlahi zəmanət” dəlili [Məkarim Şirazi, 1374 h.ş, c 11, s.18], **“**Yazı və kitabətinin təkamülü**”** dəlili [Mərifət, 1382 h.ş, s.166], “Hədislərin Quranla müqaisə edilməsi” dəlili [Kuleyni, c 1, s.69],

"Səqəleyn hədisi" dəlili [Qumi, 1363 h.ş, c 2, s 345. Qəraəti, 1385 h.ş, c 6, s 318] və sairlər dəlil və sübutları dərc etmişlər.

**10.Müsəlmanların Qurana göstərdiyi misilsiz diqqət**

Müsəlmanların müqəddəs kitablarına göstərdiyi diqqət və qayğı, bəşər tarixində heç bir xalqın nə öz səmavi kitablarına, nə də digər mühüm və elmi əsərlərinə göstərdiyi qədər olmamışdır. Çünki:

10.1.Həzrət Peyğəmbər (s) nə qədər ayə nazil olurdusa, onları dəfələrlə səhabələrə oxuyardı.

10.2.Vəhy katibləri və başqaları həmin ayələri çoxsaylı nüsxələr şəklində yazıya alırdılar.

10.3.Həzrət Peyğəmbərin ayələrin tilavətinə verilən savab barəsindəki təkidinə görə, müsəlmanlar ömürləri boyu gündəlik olaraq bu ayələri oxumağa davam edirdilər.

10.4.Quranın öyrədilməsi və öyrənilməsinin fəziləti haqqında olan hədislər səbəbilə, müsəlmanlar dərs və tilavət məclisləri təşkil edirdilər.

10.5.Həzrət Peyğəmbərin Qiyamət günü Quran hafizlərinin üstünlüyü barədəki sözlərinə görə, bir çox səhabə Quran ayələrini əzbərləməyə çalışırdı. Onlar bu işə çox əhəmiyyət verirdilər. Təkcə Yəmamə döyüşündə dörd yüz Quran hafizi şəhid olmuşdu.

10.6.Böyük səhabələr vəhy ayələrini toplayıb tərtib etməyə başladılar və hər biri özünə bir müshəf hazırladı.

10.7.Əbu Bəkrin xilafəti dövründə müsəlman hakimiyyəti tərəfindən Qurani-Kərimin tərtibi zamanı məşhur səhabələrin və vəhy katiblərinin müshəflərindən istifadə edilərək uyğun şəkildə tərtib edildi.

10.8.Osmannın hakimiyyəti dövründə isə müshəflərin tərtibi işi, on beş nəfərdən ibarət ixtisaslı səhabələrdən təşkil olunmuş elmi komissiyanın nəzarəti altında həyata keçirildi.

10.9.O vaxtdan bu yana müsəlmanlar bütün İslam ölkələrində həmin Osman müshəfinin surətlərini çıxarıb çoxaldır, on dörd əsr boyunca milyonlarla eyni nüsxə müsəlmanlara təqdim edilmişdir.

10.10.Son əsrlərdə isə yüz milyonlarla Quran nüsxəsi dünyanın müxtəlif çap evlərində nəşr edilərək yer üzünü işıqlandırıb.

**11.Nəticə**

Qurani-Kərimin təhrifə məruz qalması iddiası azsaylı şərqşünaslar tərəfindən qaldırılıb. Digər səmavi və tarixi kitablarla müqayisədə Qurani-Kərim ən mötəbər kitab hesab edilir. Çünki Məhəmməd Peyğəmbərin vəyh katiblərinə imla etdiyi andan yazılması başlanılıb, habelə şifahi ədəbiyyata üstünlük verən ərəb insanları tərəfindən əzbərlənib. Teodor Nöldeke, Reji Blaşer, İqnas Qoldziher kimi şərqşünaslar Qurani-Kərimin erkən İslam dövründən başlayaraq belə mütəvatir şəkildə nəsildən nəsilə keçməsini görməzdən gəliblər və bəzi əsassız hədislərə istinad edərək təhrifdən söz açıblar. Bu arada

İngilis şərqşünası Montqomeri Vott (1909-2006) kimi alimlər də vardır ki, Qurani-Kərimin təhrifdən uzaq olmasından yazıblar.

## 12.ƏDƏBİYYAT

**1.** Qurani-Kərim.
**2.** Burucerdi, Mirza Məhdi. (1375 h.ş.). *Burhane Roşən (əl-Burhan əla ədəmi təhrifil-Quran).* Buzər Cəmhəri, Tehran, İran.
**3.** Buxari, Məhəmməd ibn İsmail. (1401 h.q.). *Səhih əl-Buxari.* Darul-fikr littəbaəti və əl-nəşr və əl-tozi, Beyrut.
**4.** Blaşer, Reji. (1365 h.ş.). *Dər astaneye Quran* (tərcümə: Mahmud Ramyar). Dəftəre nəşre fərhənge islami, Qum, İran.
**5.** Bundaq, Məhəmməd Sadiq. (1983). *Əl-Mustəşriqun və tərcumətul-Quran.* Darul-afaqul-cədidəh, Beyrut, Lobnan.
**6.** İbni Əbi Hatəm, Əbdürrəhman ibn Məhəmməd. (1419 h.q.). *Təfsirul-Quranil-Əzim.* Məktbətu Nizar Mustəfa Əlbaz, Səudi Ərəbistan.
**7.** Qoldziher, İqnas. (1995). *Məzahibu əl-təfsirul-İslami.* Məktəbətu əl-Xanəci LiMisr.
**8.** Qəraəti, Mohsin. (1385 h.ş.). *Təfsire Nur.* Mərkəze fərhəngiye dərshaye əz Quran, Tehran, İran.
**9.** Qumi, Əli ibn İbrahim. (1363 h.ş.). *Təfsire Qumi.* Darul-kutub, Qum, İran.
**10.** Vat, Vilyam Montqomeri. (1998). *Əl-İslam və əl-məsihiyyət fil-aləmil-muasir* (tərcümə: Şeyx Əbdurrrəhman Əbdullah). Əlheyyətul misriyyətul-ammə lilkitab, Beyrut.
**11.** Nöldeke, Teodor. (2000). *Tarixe Quran.* İntişarate Darun-nəşir Corc Elmez.
**12.** Məkarim Şirazi, Nasir. (1374 h.ş.). *Təfsire Nümune.* Darul kutubul İslamiyyə, Tehran, İran.
**13.** Mustəfəvi, Həsən. (1385 h.ş.). *Əl-Təhqiq fi kələmatil Quran.* Mərkəze nəşre asare əllamə Mustəfəvi, Tehran, İran.
**14.** Mərifət, Məhəmməd Hadi. (1413 h.q.). *Siyanətul-Quran minət-təhrif.* Muəssisətu nəşre İslami, Qum, İran.
**15.** Mərifət, Məhəmməd Hadi. (1382 h.ş.). *Tarixe Quran.* İntişarate Simət, Tehran, İran.
**16.** Mutəhhəri, Mürtəza. (1390 h.ş.). *Məcumueye asar.* Sədra, İran.
**17.** Siyuti, Cəlaləddin. (1363 h.ş.). *Əl-İtqan.* İntişarate Rəzi, Qum, İran.
**18.** Təbatəbai, Məhəmməd Hüseyn. (1388 h.ş.). *Quran dər İslam.* Muəssiseye Bustan kitab, Qum, İran.
**19.** Təbatəbai, Məhəmməd Hüseyn. (1393 h.q.). *Əlmizan fi təfsiri əl-Quran.* Muəssisətu əl-əələmi.
**20.** Təyyib, Əbdül Hüseyn. (1378 h.ş.). *Ətibul bəyan fi təfsiril Quran.* İntişarate İslam, Tehran.

**21.** Kuleyni, Məhəmməd ibn Yəqub. (1362 h.ş.). *Kafi*. İslamiyyə, Tehran, İran.
**22.** Hüseyni Şah Əbdül Əzimi, Hüseyn. (1363 h.ş.). *Təfsiru isna əşəri.* Miqat, Tehran.
**23.** Zəncani, Əbu Əbdullah. (t.y.). *Tarixul-Quran.* Muəssisətul-əələmi, Beyrut, Livan.
**24.** Zəmani, Məhəmməd Həsən. (1385 h.ş.). *Mustəşriqan və Quran.* Muəssiseye Bustan kitab, Qum.

## REFERENCES

**1.** The Holy Qur'an. (n.d.).
**2.** Burujerdi, M. M. (1996). *Bright proof (Al-Burhan 'ala adam tahrif al-Qur'an).* Buzar Jamhari, Tehran, Iran. (in Persian)
**3.** Bukhari, M. ibn Ismail. (1981). *Sahih al-Bukhari.* Dar al-Fikr li al-Tiba‘ah wa al-Nashr wa al-Tawzi‘, Beirut. (in Arabic)
**4.** Blacher, R. (1986). *At the Threshold of the Qur'an* (Transl. by M. Ramyar). Daftar Nashr Farhang Islami, Qom, Iran. (in Persian)
**5.** Bundag, M. S. (1983). *The Orientalists and the Translation of the Qur'an.* Dar al-Afaq al-Jadidah, Beirut, Lebanon. (in Arabic)
**6.** Ibn Abi Hatim, A. ibn Muhammad. (1998). *Tafsir al-Qur'an al-Azim.* Maktabat Nizar Mustafa al-Baz, Saudi Arabia. (in Arabic)
**7.** Goldziher, I. (1995). *The Schools of Islamic Exegesis.* Maktabat al-Khanaji li-Misr. (in Arabic)
**8.** Qaraati, M. (2006). *Tafsir-e Nur.* Markaz Farhangi Dars-ha-ye az Qur'an, Tehran, Iran. (in Persian)
**9.** Qummi, A. ibn Ibrahim. (1984). *Tafsir-e Qummi.* Dar al-Kutub, Qom, Iran. (in Persian)
**10.** Watt, W. M. (1998). *Islam and Christianity in the Contemporary World* (Transl. by Shaykh Abdurrahman Abdullah). Al-Hay'at al-Misriyya al-‘Amma lil-Kitab, Beirut. (in Arabic)
**11.** Noldeke, T. (2000). *History of the Qur'an.* Intisharat Dar al-Nashr George Elmez. (in Persian)
**12.** Makarem Shirazi, N. (1995). *Tafsir-e Nemuneh.* Dar al-Kutub al-Islamiyyah, Tehran, Iran. (in Persian)
**13.** Mostafavi, H. (2006). *Research on the Words of the Qur'an.* Markaz Nashr Asar Allameh Mostafavi, Tehran, Iran. (in Persian)
**14.** Marifat, M. H. (1992). *Protection of the Qur'an from Distortion.* Mu'assasat Nashr Islami, Qom, Iran. (in Arabic)
**15.** Marifat, M. H. (2003). *History of the Qur'an.* Intisharat Simat, Tehran, Iran. (in Persian)
**16.** Motahhari, M. (2011). *Collected Works.* Sadra, Iran. (in Persian)
**17.** Suyuti, J. (1984). *Al-Itqan.* Intisharat Razi, Qom, Iran. (in Persian)

**18.** Tabatabaei, M. H. (2009). *The Qur’an in Islam.* Mu’assasah Bustan-e Ketab, Qom, Iran. (in Persian)
**19.** Tabatabaei, M. H. (1973). *Al-Mizan fi Tafsir al-Qur’an.* Mu’assasah al-A‘lami. (in Arabic)
**20.** Tayyib, A. H. (1999). *Atib al-Bayan fi Tafsir al-Qur’an.* Intisharat Islam, Tehran. (in Persian)
**21.** Kulaini, M. ibn Yaqub. (1983). *Al-Kafi.* Islamiyyah, Tehran, Iran. (in Persian)
**22.** Husayni Shah Abdul Azimi, H. (1984). *Tafsir al-Ithna Ashari.* Miqat, Tehran. (in Persian)
**23.** Zanjani, A. A. (n.d.). *History of the Qur’an.* Mu’assasat al-A‘lami, Beirut, Lebanon. (in Arabic)
**24.** Zamani, M. H. (2006). *The Orientalists and the Qur’an.* Mu’assasah Bustan-e Ketab, Qom. (in Persian)